| | | |
|---|---|---|
| Ümumi məlumat | **Fənn (kodu, titul, kredit)** | **MGT 850-Əməliyyatların idarə edilməsi və logistika -3KU krediti (6 ECTS)** |
| | Departament | İqtisadiyyat və Menecment |
| | Proqram | Magistr (MBA) |
| | Semestr | 2025-ci ilin payız semestri |
| | Müəllim | Kamran İsgəndərov |
| | E-mail: | kamran.isgandarov@khazar.org |
| | Otaq/dərs saatı | Şənbə 8:30-11:00, otaq |
| **Prerekvizit** | **ECON 830 Müəssisənin iqtisadiyyatı** | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Məcburi/Seçmə** | Məcburi | |
| **Tələb olunan dərsliklər və dərs vəsaitləri** | **Əsas Dərslik:**<br>Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi, Cey Heizer, Barri Render, Çak Manson, Azərbaycan dilinə tərcümə, 2020-ci il | |
| **Kursun təsviri** | Hazırki kurs əməliyyatların idarə edilməsinin və logistikanın idarə edilməsinin konsepsiyalarını, prinsiplərini və təcrübələrini əhatə etməkdədir. Həm mal istehsal edən, həm də xidmət göstərən təşkilatlarda effektiv əməliyyatlar üçün idarəetmə proseslərinin necə qurulduğuna dair nəzəri və praktiki məlumatlar təqdim ediləcəkdir. Kursun əhatə etdiyi mövzulara əməliyyatların idarə edilməsinin, eləcədə logistika və təchizat zəncirinin idarə edilməsinin ümumi konsepsiyaları, təşkilatın biznes strategiyasına əsaslanan əməliyyatların idarə edilməsi strategiyasının seçimi, layihələrin idarə ediliməsinin yanaşmaları, məhsul və xidmətin dizaynı, keyfiyyətin idarə edilməsi, prosesin dizaynı, obyektlərin coğrafi yerləşməsi və daxildə quruluşu (avadanlıqların yerləşdirilməsi və s.), istehsalın planlaşdırılması, tələbin proqnozlaşdırması, mal ehtiyatlarına nəzarətin təşkili və təchizat zəncirində axınların idarə edilməsi daxildir.<br>Əməliyyatların idarə edilməsi strategiyalarının seçimi, təchizat zəncirinin idarə edilməsi və logistika əməliyyatları, qənaətcil istehsalat və istehsalın planlaşdırılması, mal ehtiyatlarına nəzarət kimi mövzular üzrə ətraflı müzakirələr planlaşdırılır. Digər mövzular mövcud konsepsiya və alətlərin aydın ifadəsini və tətbiq əhatəsini daxil edəcək. | |
| **Kursun məqsədi** | Əməliyyatların idarə edilməsi -mal və xidmətlərin yaradılması ilə bağlı proseslərin toplusudur, logistikanın idarə edilməsi isə təşkilat-daxilində eləcədə xaricində mövcud olan mal və informasiya axınlarının idarəetmə prosesidir. Əməliyyatlar və ya logistika menecerləri arzu olunan mal və xidmətlərin istehsalı üçün təşkilati resursların planlaşdırılması, təşkili, əlaqələndirilməsi və nəzarət edilməsinə cavabdehdirlər. Bu iş fəaliyyətlərin və vəzifələrinin iş şəraitində necə təşkil olduğuna dair nəzəri və praktiki biliklərin tələbələrə ötürülməsi kursun əsas məqsədidir.<br>Tələbələr istehsal və əməliyyat funksiyaları haqqında anlayışı inkişaf etdirəcəklər. Onlar istehsal və əməliyyat sistemlərini, logistika və təchizat zəncirini dizayn etməyi və idarə etməyi öyrənəcəklər. Kurs real iş fəaliyyəti zamanı qərar qəbuletmə bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi üçün analitik üsullardan istifadəni daxil edəcək. Beləliklə, tələbələr əldə edəcəkləri biliklərlə real iş şəraitində rastlaşdıqları problemləri həll etmək üçün tətbiqetmə imkanlarına sahib olacaqlar. Nəhayət, tələbələr imtahanlar vasitəsilə əməliyyatların idarə ediməsi və logistika məzmununu mənimsəmələrini nümayiş etdirə biləcəklər. | |

<table>
<tr><td>Tədris öyrənmə nəticələri</td><td colspan="3">Tələbələr hazırki kursu bitirdikdən sonra aşağıdakı sahələr üzrə bilik və bacarıqları formalaşdırmış olacaqlar:<ul><li>İstənilən təşkilatda istehsal və əməliyyatların idarə edilməsi, eləcədə logistika və təchizat zəncirinin idarə edilməsi funksiyası haqqında anlayış və tətbiqetmə yanaşmasını inkişaf etdirə bilcəklər.</li><li>Təşkilatların məhsuldarlığını, rəqabət qabiliyyətinin əhəmiyyətini və ona müvafiq əməliyyatların idarə edilməsi startegiyasının seçimi nəticəsində təsir etməni anlayacaqlar.</li><li>Məhsulun və xidmətin yaradılması qərarlarının əhəmiyyətini və təşkilatlarda keyfiyyətin idarə edilməsi təcrübəsinin tətbiqi təşkilat-daxili səmərəliliyə necə töhfə verdiyini anlayacaqlar.</li><li>Obyektlərin (istehsalat obyektlərinin, anbarların və s.) yerləşməsi və obyekt-daxili quruluş (yerləşdirmə) strategiyalarını və onların təşkilatların ümumi strategiyaları ilə necə əlaqəli olduğunu anlayacaqlar.</li><li>Əməliyyatların və layihənin planlaşdırılmasında istifadə olunan alətlərin və təcrübələrin əlaqəsini anlayacaqlar.</li><li>Tələbin proqnozlaşdırılması və müxtəlif tələb parametrlərində ehtiyatların idarə edilməsində tətbiq edilən əsas modelləri başa düşəcəklər.</li><li>Təchizat zəncirinin idarə edilməsi fəaliyyətlərini və təşkilatlarda korporativ strategiyanın bu aspektin artan əhəmiyyətini anlayacaqlar.</li></ul></td></tr>
<tr><td rowspan="5">Tədris metodu</td><td colspan="2">Mühazirə</td><td>+</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>+</td></tr>
<tr><td colspan="2">Quizlər (tapşırıqlar)</td><td>+</td></tr>
<tr><td colspan="2">Keys təhlili</td><td>+</td></tr>
<tr><td colspan="2"></td><td></td></tr>
<tr><td rowspan="6">Qiymətləndirmə</td><td>Metodlar</td><td>Tarix</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr 2025 (Elan ediləcək)</td><td>30</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Aktivlik</td><td></td><td>5</td></tr>
<tr><td>Quizlər</td><td>Oktyabr və Dekabr, 2025</td><td>20</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar 2026 (Elan ediləcək)</td><td>40</td></tr>
<tr><td></td><td>Cəmi</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="3">Aktivlik / Davamiyyət - Dərslərin davamiyyətinə və aktiviliyə təyin olunmuş ballar tələbənin dərsdə mütəmadi şəkildə iştirak etməsinə və dərslərdə fəal olmasına (sual-cavab sessiyaları, şərhlər) görə müəyyən ediləcək.<br>Quizlər: Semestr ərzində 2 dəfə yazılı (test sualları+açıq suallar) quiz təşkil ediləcək. Hər quiz 10 bal olmaqla maksimum 20 balla qiymətləndiriləcək.<br>Plagiarizm: başqa şəxsin, ideya və fikirlərini bu və ya başqa formada özününkü kimi qələmə verilməsi və çatdırılmasıdır. Plaqiarizm birməmanlı olaraq qadağandır və Universitet üzrə qəbul olunmuş qaydalar əsasında tənzimlənir.</td></tr>
</table>

| Həftə | Tarix (təqribi) | Mövzu | Fəsillər |
|---|---|---|---|
| 1 | | Fənnə giriş.<br>Əməliyyatlar və məhsuldarlıq.<br>Logistik əməliyyatlar və funksiyalar. | Fəsil 1 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 2 | | Qlobal mühitdə əməliyyatlar strategiyası.<br>Firmanın rəqabət siyasətində logistikanın yeri və logistik missiya. | Fəsil 2 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 3 | | Keyfiyyətin idarə edilməsi.<br>Malların və xidmətlərin dizaynı. | Fəsil 5 və Fəsil 6 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 4 | | Proses strategiyası.<br>Layihələrin idarə edilməsi. | Fəsil 7, Fəsil 3 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 5 | | Obyektlərin yerləşmə strategiyaları.<br>Avadanlıqların yerləşdirmə və obyektlərin daxili quruluşu strategiyaları. | Fəsil 8, Fəsil 9 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 6 | | Avadanlıqların yerləşdirmə və obyektlərin daxili quruluşu strategiyaları. | Fəsil 9 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 7 | | **Quiz 1.**<br>İnsan resursları, işin dizaynı, işin ölçülməsi. | Fəsil 10 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 8 | | **Aralıq imtahanı** | |
| 9 | | Logistika və Təchizat zəncirinin idarə edilməsi. | Fəsil 11, Fəsil 11 Əlavə (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |

| | | | |
|---|---|---|---|
| 10 | | Proqnozlaşdırma.<br>Ehtiyatların idarə edilməsi. | Fəsil 4, Fəsil 12 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 11 | | Ehtiyatların idarə edilməsi.<br>Materiala tələbin planlaşdırılması. | Fəsil 12, Fəsil 14 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 12 | | Qənaətcil əməliyyatlar. | Fəsil 16 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 13 | | Məcmu planlaşdırma və S&ƏP. Qısamüddətli planlaşdırma. | Fəsil 13, Fəsil 15 (Əməliyyatların idarə edilməsi, Dayanıqlı inkişaf və istehsal-təchizat zəncirinin idarə edilməsi) |
| 14 | | **Quiz 2.**<br>**Final imtahana qısa hazırlıq- mövzuların icmalı** | |
| | | **Final imtahanı** | |